# Elm adamının portretindən cizgilər

**Filologiya üzrə elmlər doktoru, professor Məmməd İrac oğlu Əliyev 1948-ci il dekabr ayının 10-da Xızı rayonunun Zöhrabkənd kəndində qulluqçu ailəsində anadan olub.**

1963-cü ildə kənd məktəbinin 8-ci sinfini, 1966-cı ildə Siyəzən şəhər orta məktəbini bitirib. 1966-1970-ci illərdə Azərbaycan Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində, 1971-1975-ci illərdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun aspiranturasında təhsil alıb.

1975-ci ildə akademik M.C.Cəfərovun rəhbərliyi altında "Azərbaycan xalq şeirinin forma və şəkilləri" adlı namizədlik dissertasiyasını, 1985-ci ildə Gürcüstan EA Şərqşünaslıq İnstitutunda "Azərbaycan şeirinin vəzn və evfoniya problemləri" adlı doktorluq dissertasiyasını müdafiə edib.

O da, məlumdur ki, Məmməd Əliyev müasir ədəbi-elmi camedə tanınmış ədəbiyyatşünas, nəzəriyyəçi alim, uzun illər ali məktəblərdə pedaqoq və elm-tədris təşkilatçısıdır. 43 il ali məktəblərdə müəllim, baş müəllim, dosent, professor, rektor kimi olduqca səmərəli fəaliyyət göstərib, sayılan-seçilən müəllim-pedaqoq olub, "Respublikanın Əməkdar müəllimi" fəxri adını qazanıb, çoxlu sayda monoqrafiyaların, dərsliklərin müəllifidir...

Burada, bizim ədəbiyyatımızda təzahür edən bir xarakterik xüsusiyyəti də xatırlatmaq istərdim. Həmçinin o, ədəbi mühitdə "qoşa qanad" yaradıcılıq sahəsinin davamçılarından olmuşdur. Akademik İsa Həbibbəyli "Qoşa qanadın harmoniyası" əsərində yazır: "...elm bəşəriyyətin çırağı, alimlər dünyanın kompasıdır. Böyük ədəbiyyat da sözün həqiqi mənasında əsl elmin həyata keçirdiyi vəzifələri obrazlı şəkildə əks etdirir. ...Deməli, dünyanı, cəmiyyəti və insanı dərk və şərh etməkdə, gələcəyə doğru yol göstərməkdə elmlə ədəbiyyat vahid strategiyaya malikdir. Bu cəhətdən elm və ədəbiyyat dünyanı və insanı dərk etməyin qoşa qanadlarıdır."

Bu "qoşa qanadın" birinci qanadına nəzər salsaq, görərik ki, professor Məmməd Əliyevin ədəbiyyatşünaslığın və ədəbiyyat nəzəriyyəsinin ciddi problemlərini əhatələmiş monoqrafiyalarından "Azərbaycan xalq şerinin forma və şəkilləri", "Azərbaycan şerinin vəzn və evfoniya problemləri" sahələri üzrə tanınmış ixtisas sahibidir. Çapdan çıxmış 75 elmi əsərin, 300-dən çox məqalənin müəllifidir.

Yeri gəlmişkən, bir mühüm faktı da xatırladım... Məmməd Əliyevin "Azərbaycan şeirinin ritm vasitələri, qafiyənin təşəkkül və inkişafı (türkdilli xalqların poeziyası ilə tarixi-müqayisəli metodlar əsasında)" mövzusunda elmi-tədqiqat əsərinə dövrün ən məşhur rus və Avropa, Orta Asiya şərqşünasları yüksək qiymət vermiş, Məmməd Əliyevi bu sahədə yenilikçi alim kimi dəyərləndirmişlər... Etiraf edilməlidir ki, SSRİ kimi qapalı bir dövlətdə, türkçülüyə amansız münasibət dövründə ümumtürk şeiri əsasında araşdırmalar, tədqiqatlar aparmaq alimdən böyük cəsarət tələb edirdi...

Mövzu dairəsində şifahi xalq ədəbiyyatının, habelə Y.Balasaqunlunun "Kutadqu-bilik" əsərindən başlayaraq müasir Azərbaycan poeziyasının nümunələri alim tərəfindən ümumtürk şeirinin intibahı kimi təqdim və tədqiq edildi, hətta, beziləri tərəfindən qısqanclıqla da qarşılandı...

Lakin əsər görkəmli ədəbiyyatşünaslar tərəfindən yüksək qiymətləndirilir:

Akademik M.Cəfər: "...Olduqca vacib və lazımlı tədqiqatdır..."; akademik E.Cavalidze: "...Dissertasiyanın nəticə və mülahizələri sovet şərqşünaslığında böyük elmi nəzəri və praktik əhəmiyyət kəsb edir..."; akademik A.Axundov: "...Azərbaycan heca vəznli şeirinin ölçüləri mövzusundakı doktorluq dissertasiyası bu sahədə ilk hərtərəfli monoqrafik tədqiqatdır..."; professor, əməkdar elm xadimi, Harvard Universitetinin fəxri doktoru Rüstəm Əliyev: "Ümumtürk şeiri haqqında fenomenal bir əsərdir"; professor A.Xintibidze: "...Təəssüf ki, gürcü poeziyası ilə bağlı hələ ki, belə sanballı tədqiqat işi aparılmayıb...".



Professor Məmməd Əliyevin elmi əsərlərinin bir qisminin elmi-nəzəri problematikasını xülasə şəklində nəzərdən keçirəsi olsaq, onun ədəbiyyatşünas - nəzəriyyəçi kimi ampulasının siqləti haqqında, qismən də olsa, təsəvvür yaratmış olarıq...

Məsələn, onun "Bədii təfəkkürdə erkən Azərbaycançılıq düşüncəsi", (Bakı. "Elm və təhsil", 2018, 168 səh.) tədqiqatında erkən Azərbaycançılıq düşüncəsinin genezisindən, onun mif, epos yaradıcılığından qaynaqlanan ilkin dərketmə, birgəyaşayış və idarəetmə funksiyası barədə məlumat verilir. Mifdə kosmoqonik, etnoqonik baxışlar sistemi "Avesta"dan və Zərdüştilikdən irəli gələn xeyir fikir, xeyir söz, xeyir iş təliminin sonrakı dövrlərdə bədii təfəkkürdə, xüsusən epos yaradcılığında formalaşmasından geniş söhbət açılır...

Və yaxud, "Ədəbiyyat nəzəriyyəsi" (Bakı, "Elm və təhsil", 2012, səh. 480.) monoqrafiyasında ədəbiyyatşünaslıq elmini əhatə edən mövzu və problemlərin, o cümlədən bədii əsərin mövzu və ideyası, süjet və kompozisiyası, şeirimizin mövcud vəznləri, bənd quruluşu, ritm vasitələri kimi məsələlərin yeni müstəvidə elmi izahı öz əksini tapmışdır; "Quba-Şabran folklor örnəkləri I." ( Bakı, "Elm və təhsil", 2013, 328 səh.) kitabında isə tədqiqatçı göstərir ki, qədim tarixi-mədəni mərkəzlərdən olan Dərbənd, Quba, Şabran şəhərlərinin strateji mövqeyi istər miladdan öncə, istər sonrakı tarixi dövrlərdə bu coğrafi ərazidə söz sənətimiz və musiqimizin çox böyük örnəkləri yaranmış, inkişafına güclü təkan vermiş, xüsusən, orta əsrlərdə Səfəvilərin hərbi-tarixi səfərləri regionda maddi mədəniyyət abidələrimizin, şifahi söz sənətimizin əfsanə, rəvayət, dastan, nağıl və s. kimi janrlarının, ümumilikdə şimal-şərq regionu foklorumuzun inkişafında güclü təsir göstərmişdir ki, bunlar əsaslı şəkildə tədqiqata cəlb edilir...

"Azərbaycan şerinin vəzn və evfoniya problemləri" (Bakı, "Nurlan", 2008, səh. 296) ümumtürk şeiri ilə müqayisəli araşdırma əsasında ərsəyə gəlmiş bu monoqrafiyasında isə professor Məmməd Əliyev yenə də, tədqiqatdan uzaq düşmüş problemin həllinə girişir, kitabda hecə vəznli Azərbaycan şeir sənətinin aktual məsələləri təhlilə cəlb edilir, vəzn və evfoniyaa problemləri ümumtürk şeiri ilə müqayisə fonunda işıqlandırılır...

"Böyük yolun davamı (Türk xalqları ədəbiyyatına dair araşdırmalar), I kitab, (Bakı, "Elm və Təhsil", 2019, 512 səh.) və "Böyük yolun davamı" (II kitab, Bakı, "Elm və Təhsil", 2022, 532 səh.) toplusunun elmi redaktoru akademik İsa Həbibbəyli, məsul redaktor filologiya elmləri doktoru, dosent Qurban Bayramovdur) böyük həcmli kitablarında isə müəllifin son illərdə çap olunmuş məqalələri toplanmışdır. Bu məqalələr yeni tarixi-ədəbi faktlar əsasında işlənmiş, XIX-XX əsrlər Avropa türkoloji məktəbinin nümayəndələri haqqında öçerklər də, ədəbiyyatşünaslığımızda, şübhəsiz, yenidir...

Məmməd Əliyevin elmi yaradıcılığının bütöv bir mərhələsini türk xalqları ədəbiyyatı, Türkiyə ədəbiyyatı, Orta Asiya xalqları ədəbiyyatı və sair mövzuların tədqiqi tutur. Türk xalqları ədəbiyyatının inkişaf problemləri, nəzəri-estetik prinsipləri, ayrı-ayrı sənətkarların ədəbiyyatın inkişafında rolu, poeziya problemləri, türkdilli şeirin tarixi poetikası və sair problemlər çağdaş elmi-nəzəri konsepsiyalar kontekstində, bədii nümunələrlə araşdırılır...

Azərbaycan şeirində paralelizm problemini çoxçeşidli qaynaqlar əsasında araşdıran müəllif V.V.Radlov, V.M.Jirmunski, S.E.Malov, T.Kovalski, İ.V.Stebleva kimi nüfuzlu alimlərlə polemikaya girərək öz elmi-nəzəri fikirlərini əsaslandırır. Professor türk şeirinin tədqiqatçılarından İ.V.Stebleva ilə polemikasında onun mülahizələrinin qeyri-dəqiqliyini, elmi əsasa söykənmədiyini türk şeirindən gətirdiyi örnəklərlə isbatlayır.

Professor Məmməd Əliyevin elmi-nəzəri məqalələrinin mövzu və problemləri də ədəbiyyatşünaslığımızın həmişə diqqət mərkəzində olmuşdur.

Professor Məmməd Əliyev ədəbiyyatşünaslığın, ədəbiyyat nəzəriyyəsinin, ədəbi əlaqələrin fundamental bilicilərindəndir, ədəbi qanunları kamil bilir və istiqamətləndirir...

Məmməd Əliyev həmçinin istedadlı yazıçıdır və Azərbaycan nəsr tarixində memuar janrında ilk beş cildlik roman-epopeya (pantologiya) yaradan qələm sahibidir. Onun hələlik əlimizdə olan dörd cillik çetvertologiyasının (5 cild yazılmaqdadır) birinci kitabı "Həsrətin o üzü" (Bakı, "Elm və təhsil", 2021, 520 səh.), ikinci kitabı isə "Karvan köçər, ötər gedər sədası" (Bakı, "Elm və təhsil", 2021, 388 səh.) üçüncü kitab "Mavi-yaşıl gözlərin işığı", (Bakı, "Optimist" MMC-çap mərkəzi, 2023, 490 səh.), dördüncü kitab "Bir uzaq yaşıl ada" (Roman-epopeya, IV kitab, Bakı, "Elm və təhsil" nəş.,2025, 496 səh.) adlanır.

Bu epopeyada XX əsrin 50-60-cı illərindən bu günlərimizə qədər Azərbaycanda gedən ictimai-siyasi proseslər kontekstində bir ailənin düşdüyü böhranlı həyat tərzi bütün reallıqları ilə əks olunmuşdur. Məkrli erməni xəyanəti nəticəsində ailə başçısını itirən Ana məcburiyyət üzündən ucqar dağ kəndində yaşamalı olur, iki azyaşlı övladını böyütmək üçün hər cür əzab-əziyyətə dözərək onları layiqli vətəndaş görmək istəsə də, hər addımda müəyyən problemlərlə qarşılaşır, bütün qüvvəsini səfərbər edir... Ata həsrətlə dünyasını dəyişir, həsrətin o üzündə qoyub getdiyi iki övladı və onların anası durur. Həsrətin o üzü amansız və sərtdir... Və romanın baş qəhrəmanı Məmməd Əliyevin prooburazı olan Muradın həyatının fonunda bütün Azərbaycan xalqının bu dövrdəki gerçəklikləri - 50-ci illərdən sonrakı Sovet dövrü Azərbaycanının ictimai, siyasi, sosial, mədəni-ədəbi həyatı çetvertologiyda memuar janrında, yüksək bədiiliklə əksini tapıbdır. Əslində isə bu modern dastandır...

Fikrimcə, bu günə qədər mövcud olan memuarlar sırasında belə ədəbi mətndə belə təhkiyyə bizim ədəbiyyatımızda ilk dəfə baş verir. Roman-trilogiya yaşadığımız həyatımızı, romandakı personajların düşüncə dünyasında, həyata baxışında, yaşam tərzində bütün rəngarəngliyiilə təqdim edə bilir, keçmiş indiki zamanda zühur edir. Buradakı məkan və zaman keçidləri bədii assosiasiyanın alt qatında hərəkətdədir... Paralelizm yaranır - hiss və duyğular daim fiziki və metafizik dünya arasında hərəkətdədir. Kim nə deyir-desin, bu trilogiya həm formatına, həm üslubuna, həm epizminə görə memuar janrında olan, sosial-psixoloji çalarlarla zəngin, xatirələr silsiləsini epos modelinə uyğunlaşdırıb təqdim edən yeni roman tipidir... Məmməd Əliyevin romanlarında situativ keçidlər, ekskurslar enerjisinin axarında oxucu çox xətli, bədii-fəlsəfi-sosial yüklü elastik ədəbi dinamika ilə qarşılaşır və bu axında personajların və ədəbi qəhrəmanın başına gələn metamorfozları maraqla izləyir...

Məmməd Əliyev vətəninə, milli kökə qırılmaz tellərlə bağlı olan seçkin ziyalılarımızdandır. Yüksək elmi-nəzəri təfəkkür, türkçülük, vətəncilik, torpağa və dövlətçiliyə sədaqət, ünsiyyət mədəniyyəti və insani keyfiyyətlər onu səciyyələndirən əsas xüsusiyyətlərdəndir.

**Qurban BAYRAMOV**
**AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun əməkdaşı, "Səməd Vurğun mükafatı" laureatı**